# "Kiçik qrup" anlayışı və onun psixoloji strukturu

**Yeganə Baxış qızı Əskərova**
*psixologiya üzrə fəlsəfə doktoru,*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*
**E-mail:** y.askerova@inbox.ru

**Rəyçilər:** psixol.ü.f.d., dos. N.T. Rzayeva,
psixol.ü.f.d., dos. M.C. İsmayılova

**Açar sözlər:** kiçik qrup, cəmiyyət, insan, sosial psixologiya, konflikt, ailə, məktəb, ünsiyyət

**Ключевые слова:** малая группа, общество, человек, социальная психология, конфликт, семья, школа, общение

**Key words:** small group, society, person, social psychology, conflict, family, school, communication

Qrup cəmiyyətin sosial strukturunun komponentidir. Kiçik qrup isə qrupun geniş yayılmış formalarındandır. Kiçik qrup dedikdə ailə, məktəb sinfi, işçi briqadası və s. nəzərdə tutulur.

Kiçik qrup anlayışı haqqında daha aydın təsəvvür yaratmaq üçün psixologiya elmində kiçik qrupun araşdırılması tarixinə nəzər salmaq lazımdır. Bu sahədə ilk araşdırmalar XX əsrin 20-ci illərində ABŞ-da aparılmışdır. Bu araşdırmalar zamanı psixoloqları maraqlandıran başlıca məsələ fərdin tək, yoxsa başqa insanların iştirakı zamanı fəaliyyətdə daha yüksək nəticə göstərdiyini öyrənməkdən ibarət olmuşdur.

Tədqiqatlarda insan qrup şəklində öyrənilməmiş, sadəcə insanların bir-birinin fəaliyyətinə təsiri araşdırılmışdır. Araşdırmalar nəticəsində məlum olmuşdur ki, başqalarının iştirakı zamanı fəaliyyətdə surət artır, lakin bu zaman keyfiyyət aşağı düşür. Elmdə bu effekt "sosial fasilitasiya" adı qazanmışdır. D. Mayers sosial fasilitasiyaya dair araşdırmaları nəzərdən keçirərək bu qənaətə gəlir ki, qrup insanlara oyadıcı, ehtiraslandırıcı, fəallaşdırıcı təsir göstərə bilir. Eksperimentlər nəticəsində həmçinin əks effekt – başqa şəxslərin iştirakının fərdin fəaliyyətinə ləngidici təsiri də müəyyən olunmuşdur. Bu effekt öz növbəsində psixologiyada sosial inhibasiya adı almışdır. Qeyd olunmalıdır ki, psixologiyada daha çox sosial fasilitaiya fenomeni tətbiq olunmaqdadır və ümumiyyətlə bu araşdırmaların elmə verdiyi ən böyük nailiyyət məhz sosial fasilitasiya anlayışı hesab olunur (8, 186).

Kiçik qrupların araşdırılmasına başlayarkən həll edilməli ilk suallardan biri belədir:

Kiçik qrup nədir, onun əlamətləri və sərhədləri necədir? Rusiya psixoloqu Q. Andreyevanın "Sosial psixologiya" kitabında bu anlayışın məzmunu aşağıdakı kimi açıqlanır: "Kiçik qrup dedikdə, tərkibi azsaylı olan qruplar nəzərdə tutulur. Onun üzvləri bir-birinə ümumi ictimai fəaliyyətlə bağlıdırlar. Bu da öz növbəsində qrup üzvləri arasında birbaşa emosional münasibətlərin yaranmasna səbəb olur". Bu qrup haqqında dəqiq ifadə olunmuş və tez bir zamanda təsəvvür yaradan fikirdir (3, s.126).

Vacib məsələlərdən biridə kiçik qrupun kəmiyyət xarakteristikası ilə bağlıdır. Sadəcə "kiçik qrup üzvlərinin sayı çox olmayan qrupdur" demək, bəsit yanaşmadır.

Psixoloji ədəbiyyatlarda kiçik qrupun aşağı və yuxarı həddi haqqında kifayət qədər diskussiyalar aparılmışdır. Tədqiqatların çoxunda kiçik qrupun üzvlərinin sayı 2-7 arasında (2-dən 7-ə qədər) tərəddüd edir. Bu istiqamətdə araşdırma aparan mütəxəssislərdən 71%-i kiçik qru-

pun aşağı həddi kimi 2 rəqəmini qeyd etmişdir. Bu say geniş yayılmış fikirlə üst-üstə düşür. Belə ki, bir çox psixoloqlar ən kiçik qrupların iki nəfərdən ibarət "diadlar" olduğunu hesab edir (6, s. 83).

Kiçik qrupların eksperimental şəkildə öyrənilməsinə əsaslanan müəlliflər (K. E. Danilin, A. U. Xaraş) aşağıdakı nəticəyə gəlirlər. Diadlarda yalnız sadə, ünsiyyətin genetik cəhətdən ilk forması, yəni ancaq emosional ünsiyyət özünü göstərir. Eyni zamanda, diadlarda fəaliyyətin əsl subyekti kimi baxmaq çətindir, çünki burada birgə fəaliyyətdə yaranan ünsiyyət tipini ayırd etmək faktiki olaraq mümkün deyildir: diadlarda fəaliyyətlə bağlı yarana bilən konfliktlər prinsip etibarilə həll olunmazdır. Belə ki, bu konfliktin şəxsiyyətlərarası konfliktə keçməsi qaçılmazdır. Qrupda üçüncü şəxsin iştirakı yeni mövqe yaradır-müşahidəçi mövqeyi. Bu da qarşılıqlı münasibətlər sisteminə yeniliklər gətirir: üçüncü şəxs konfliktə girmədiyindən bu, onun üçün şəxsi mahiyyət daşımır və o, ümumi fəaliyyətin naminə konfliktdə olan tərəflərdən birinə təsir göstərə bilər. Bununla da konfliktin şəxsi mahiyyət daşıması problemi aradan qalxır, konfliktin həll olunmasına zəmin yaranır. Belə baxış tərzi daha çox dəstəklənir, lakin problemin tamamilə həll olunduğunu demək olmaz(2, 28-129).

Kiçik qrupun yuxarı həddi haqqında fikirlər də mübahisəlidir. Bu problemin həlli üçün bir çox təkliflər var. C. Millerin açıqlanması daha geniş yayılanlardandır: 7 $\pm$ 2 (bu rəqəm insan hafizəsində eyni vaxtda saxlanıla bilən obyektlərin sayıdır).

K. Verderber kiçik qrupun yuxarı həddi üçün münasib kəmiyyət kimi 5-7 nəfərdən göstərmişdir. O, belə hesab edir ki, üzvlərin sayı çox olduqda qarşılıqlı münasibətlər toru həddən artıq mürəkkəbləşir və müzakirələr çox vaxt aparır (4, 161).

Beləliklə, kiçik qrup birgə fəaliyyətin həyata keçirildiyi və üzvlərinin sayı empirik yolla müəyyən olunan qrupdur: ailəni kiçik qrup kimi araşdırdıqda həm üç həm də on iki nəfərdən ibarət olan ailə nəzərdən keçirilir. Eyni zamanda işçi qrupları da qrup şəklində birgə fəaliyyəti həyata keçirirlərsə, bu zaman həm beş, həm də qırx nəfərdən ibarət qrup kiçik qrup kimi qəbul olunmalıdır.

Sosial psixologiyada kiçik qrupların üç əsas təsnifatı məlumdur. Onlardan birincisi, kiçik qrupların "birinci" və "ikinci" qruplara bölünməsi, ikincisi, kiçik qrupların "formal" və "qeyri-formal" kimi təsnifatı, üçüncüsü "üzvlük" və "referent" qrupların ayırd edilməsidir.

Kiçik qrupların "birinci " və "ikinci" qruplara bölünməsi psixologiyada ilk dəfə Ç. Kuli tərəfindən təklif olunmuşdur. Ç. Kuli ailəni, dostları, yaxın qonşuları "birinci" qrupa aid etmişdir. Onun fikrincə, "birinci" qruplarda insanlar bilavasitə ünsiyyətə girirlər, lakin bu əlamət əsas götürüldükdə "birinci" qrup kiçik qrupla eyniləşdirilmiş olur. Bu zaman isə təsnifat öz mənasını itirir. Belə ki, əgər kiçik qrupun əsas xüsusiyyəti kimi birbaşa əlaqə göstərilirsə, onun daxilində elə həmin əlamətə əsasən başqa qrup ayırmaq məqsədəuyğun hesab olunmur. Müəllifin fikrinə görə, "ikinci" qruplarda əlaqə dolayı yolla, ünsiyyət vasitəsi ilə baş verir.

Bir çox psixoloqlar Ç. Kullinin təsnifatında qeyd etdiyi "ikinci" qrupların ümumiyyətlə kiçik qrupların tərkibinə aid olunmasını düzgün hesab etmirlər. Çünki burada ünsiyyət birbaşa deyil, dolayı yolla baş verir. Bu isə kiçik qrupa xas xüsusiyyət deyil. Qeyd olunan çatışmazlıqlara görə müasir psixologiyada bu təsnifatdan praktik olaraq istifadə edilmir (6, 91).

İkinci təsnifatın müəllifi E. Meyodur E. Meyonu fikrinə, əsasən, "formal" qruplarda normalara əsasən bütün üzvlərin vəzifə və hüquqları əvvəlcədən rəsmi şəkildə müəyyənləşdirilir. Burada vəzifələrə əsasən üzvlər arasında münasibətlər də şaquli olur. Məktəb sinfini, idman komandasını formal qruplara aid etmək olar. E. Meyo formal qrupların daxilində qeyri-formal qrupları da ayırd etmişdir. Onun fikrincə, bu qruplar özbaşına əmələ gəlir, nə status, nə də rollar rəsmi müəyyənləşdirilmir, qarşılıqlı münasibətlər sistemi isə qeyri-formal qruplarda şaquli

deyil. Qeyri-formal qruplar çox vaxt formal qrupların tərkibində formalaşır. Bəzən qeyri-formal qruplarda az müddətə də olsa, qrup üzvlərinə vəzifələr təyin edilir. Bu isə formal qruplar üçün xarakterik xüsusiyyətdir. Buna görə də qrupların formal və qeyri-formal olaraq ayırd edilməsi nisbi xarakter daşıyır. E. Meyonun  təsnifatı yalnız kiçik qrupları öyrənməyə deyil, həm də insanlar arasında formal və qeyri-formal münasibətləri araşdırmağa imkan vermişdir. Bunun sayəsində isə rəhbərlik, idarəetmə problemləri daha ətraflı öyrənilməyə başlanıldı (2, s. 143).

Üçüncü təsnifat Q. Xaymen tərəfindən irəli sürülmüşdür. Q. Xaymen ilk dəfə olaraq psixologiyada "referent qrup" anlayışını daxil etmişdir. Öz eksperimentlərində (Q. Xaymen öz tədqiqatını tələbə qruplarında aparmışdır). Q. Xaymen müəyyən etmişdir ki, kiçik qrupun bəzi üzvləri heç də həmişə rəsmi üzvləri olduqları qrupun normalarına uyğun davranmırlar. Onlar başqa qrupun norma və dəyərlərini qəbul edirlər. Bu qrupu Q. Xaymen "referent qrup", şəxsin formal şəkildə üzv olduğu qrupu isə "üzvlük qrup" adlandırmışdır (1, s. 523-524).

Kiçik qrupların üzvlük və referent qruplara bölünməsinin yeniyetmələrin davranışının öyrənilməsində də olduqca mühüm rolu vardır. Referent qrupun təsiretmə mexanizmi yeniyetmələrin ziddiyyətli davranışının ilkin səbəblərini müəyyənləşdirməyə kömək edir. Belə ki, üzvlük qrup fərd üçün öz cəlbediciliyini itirir, fərd öz davranışını başqa qrupun normaları ilə tənzimləyir. Əlbəttə, bu hələ məsələnin hamısı deyil. Şəxsin hansı səbəbdən məhz müvafiq qrupu özünə referent qrup kimi seçdiyi aydın olmur. Buna görə də referent qrup və üzvlük qrup anlayışlarının ətraflı araşdırılmağa ehtiyac var (10, s. 108).

Kiçik qrup anlayışı Qərb sosial psixologiyasında daha çox üç istiqamətdə: sosiometrik, sosioloji, qrup dinamikası məktəbində araşdırılmışdır. Kiçik qrupun sosiometrik istiqamətdə araşdırılması C. Morenonun adı ilə bağlıdır. C. Moreno insanın həyatında makrostrukturu və mikrostrukturu fərqləndirmişdir. O, belə hesab edir ki, bütün gərginliklər, sosial konfliktlər insanın mikrostruktur və makrostrukturunun bir-birinə uyğun gəlməməsi, şəxsin psixoloji münasibətlərini əks etdirən simpatiya və antipatiya sisteminin makrostruktur çərçivəsinə sığmaması ilə bağlıdır. Bu zaman əsas məsələ mikrostrukturu makrostrukturla uyğunluq səviyyəsinə gətirməkdən ibarətdir.

Sosiometriya metodunun vasitəsilə kiçik qrupda şəxsiyyətlərarası qarşılıqlı münasibətlər öyrənilir. Sosiometriya metodunun tətbiqi nə qədər asan olsa da, bu metodika öz istifadə olunma sahəsinə görə istifadə olunma sahəsinə görə bir o qədər də geniş yayılmışdır. Bu istiqamətdə kiçik qrupun araşdırılması məhdud xarakter daşıyır. Belə ki, burada şəxsiyyətlər arasında yalnız emosional əlaqələr araşdırılır. Sosiometriya metodu ilə kiçik qrup daxilində emosional münasibətləri öyrənərkən başqa bir problem də üzə çıxır: sosiometrik seçmələrin motivi aydın olmur (7, s. 150).

Hər bir kiçik qrupda elə bir üzv ola bilər ki, o, daha çox nəzarətdə saxlanılsın. Bu zaman həmin üzv müəyyən qədər müqavimət göstərdikdən sonra nəticə əldə edə bilmirsə, əksər hallarda qrupu tərk edir və ya təcrid edilmişlərdən olur. Belə hallar daimi qruplarda (üzvləri stabil olan qruplarda) müşahidə olunur. Bu səbəbdən də şagirdlərə fərqli qruplarda işləməyi Sosial psixologiyanın əsas məsələlərindən biri kiçik qrupun həyatında baş verən prosesləri təhlil etməkdən ibarətdir. Q. Andreyeva hesab edir ki, bu proseslər iki nöqteyi-nəzərdən təhlil olunmalıdır:

1. Birincisi, kiçik qrupda ünsiyyətin və qarşılıqlı təsirin qanunauyğunluqları nöqteyi-nəzərindən. Müəllifin fikrincə, kiçik qrupda xüsusi kommunikativ, interaktiv və perseptiv əlaqələr mövcud olur.

2. İkincisi, kiçik qrupun şəxsiyyətə təsiretmə mexanizmi-qrup normalarının, dəyərlərinin

mənimsənilməsi, qrupun fərddə yaratdığı ustanovkalar və s. nöqteyi-nəzərindən. Bununla bərabər, fərdin də qrupa necə təsir etməsi öyrənilməlidir (3, s. 136).

Qrupun necə inkişaf etməsi, bu inkişafda hansı mərhələləri keçməsi, hər bir mərhələdə hansı proseslərin baş verməsi də vacib məsələlərdəndir.

"Qrup dinamikası" anlayışı elmdə müxtəlif mənada işlədilir. İlk növbədə, bu anlayış sosial psixologiyada K. Levin və onun davamçıları tərəfindən kiçik qrupun araşdırılmasının əsas istiqamətlərindən biridir. İkinci mənada bu anlayış kiçik qrupu araşdırarkən istifadə olunan metodlar toplusunu nəzərdə tutur. O, da qeyd olunmalıdır ki, bu metodlar toplusu məhz K. Levin məktəbi tərəfindən yaradılmışdır.

Kiçik qrup ictimai həyatın müxtəlif sahələrində mövcud olduğu üçün onun formalaşması yolları da fərqlidir. Kiçik qruplar daha çox xarici faktorların təsiri ilə yaranırlar. Məsələn, hansısa sosial institutun və ya təşkilatın inkişafı naminə onun nəzdində kiçik qrup yaranır. Daha geniş mənada demək olar ki, kiçik qrup ictimai əmək bölgüsü tələbatından dolayı yaranır və ümumiyyətlə cəmiyyətə xidmət edir. Necə ki, yeni məhsulun yaradılası ilə əlaqədar yaradıcı briqada təşkil olunur, təhsil sisteminə yeni şagirdlərin gəlməsi ilə əlaqədar məktəb sinfi, hansısa bölgədə və ya idarədə idmanın inkişafı ilə əlaqədar olaraq idman komandası yaradılır və s. Bütün göstərilən hallarda kiçik qrupun yaradılmasına səbəb sadəcə onun üzvləri ilə bağlı olmayıb, daha geniş sosial sistem olan ictimaiyyətin tələbatları ilə əlaqəlidir. Qrup üzvlərini onlar özləri seçdikdə isə özününizamlama, öz hərəkətlərinə, seçimlərinə görə cavabdehlik, məsuliyyət hissi inkişaf edir (9, s. 97).

Qrup həmrəyliyinin öyrənilməsi üçün başqa yanaşma da mövcuddur. T. Nyukoma "razılıq" anlayışı vasitəsilə qrup həmrəyliyini araşdırmağa cəhd etmişdir. O, C. Moreno və L. Festingerin yanaşmalarından fərqli fikir irəli sürmüşdür. T. Nyukoma qrup həmrəyliyini qrupun üzvləri üçün dəyərli olan cisim və hadisələrlə bağlı onların oxşar fikirlərinin olması və onların inkişaf etdirilməsi ilə bağlamışdır. Oxşar fikirlərin inkişafı, yəni razılığın əldə olunması sonralar fərdin fəaliyyət sahəsindəki (K. Levinin "sahə nəzəriyyəsi"ndən) gərginliyin aradan götürülməsi kimi izah olunmuşdur. Mövcud gərginliyin götürülməsi isə mütəxəssislərin fikrincə, fərdin emosional reaksiyaları sayəsində baş verir. Buna görə də T. Nyukomanın fikirləri həmkarları tərəfindən qəbul olunmuşdur (5, s. 11).

Qrup həmrəyliyinə dair bir çox eksperimentlər aparılmışdır. Onlardan xüsusi olaraq qrup məqsədlərinə yer ayırmış A. Beyvelasın eksperimentləri qeyd olunmalıdır. A. Beyvelas tərəfindən qrupun aşağıda göstərilən məqsədləri ayırd edilmişdir:

1. Qrupun operasional məqsədləri-kommunikasiya funksiyasını daşıyan optimal sistemin yaradılması
2. Qrupun simvolik məqsədləri-hər bir qrup üzvünün fərdi fikir və məqsədlərinin qrup üçün keçərli, əsas olması

A. Beyvelasın fikrincə, qrup həmrəyliyi yuxardakı həm birinci, həmdə ikinci məqsədlərin reallaşdırılması xarakterindən asılıdır.

Qrup həmrəliyi, birliyi öyrənilərkən bəzən qrup üzvlərinin əməkdaşlığı anlayışı ilə qarışdırılır. Q. Andreyevanın fikrincə, bu anlayışlar bir-biri ilə sıx əlaqəli olsalar da, onlar fərqlidirlər. Q. Andreyeva hesab edir ki, qrup üzvlərinin əməkdaşlığı qrupun öz funksiyalarını yerinə yetirə bilməsi üçün zəruridir. Qrup həmrəyliyi isə qrup üzvlərinin təsadüfən deyil, ən yüksək səviyyədə seçildiyi, qarşılıqlı münasibətlərin öz xüsusiliyi ilə fərqləndiyi və bu səbəbdən də qrupun məqsədləri, bu məqsədlərlə bağlı fəaliyyətlərin yüksək müvəffəqiyyətlə həyata keçirildiyi deməkdir.

**Məqalənin aktuallığı.** İnsan cəmiyyət daxilində doğulub yaşayır. Hər bir fərd nəinki bio-

loji, eyni zamanda sosial irsə sahib olub, konkret mühitdə və cəmiyyətdə mövcud yaşayış tərzini, görüşləri, adət və ənənələri təkrar edir. Bu baxımdan hər bir şəxs konkret cəmiyyətin məhsulu, öz dövrünün övladıdır. Burada insan birliyi xüsusi rol oynayır. Əgər insan tək, tənha yaşasaydı nə onun bir şəxsiyyət kimi formalaşması, nə də öz tələbatlarını ödəməsi işi istənilən səviyyədə gedə bilməzdi. Məhz buna görə də bəşər tarixində insanlar daima müəyyən qruplarda birləşir və fəaliyyət göstərirlər. Bu baxımdan mövzunun aktuallığı diqqət çəkir.

**Məqalənin elmi yeniliyi.** Məqalədə qrup bir-birinə qarşılıqlı təsir göstərən, bir-birinə uzun müddət təsir göstərməklə özlərini «biz» kimi qavrayan iki və daha artıq insan birliyi kimi araşdırılmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Kiçik sosial qruplarda insanların bir-birilə təması daha yaxın və daimi xarakter daşıyır. Kiçik sosial qrupun üzvləri ümumi bir işlə məşğul olur və bir-birilə birbaşa qarşılıqlı əlaqədə olurlar. İnsan öz həyatının çox hissəsini bu qrupun daxilində keçirir. Ona görə də bir-birlərini yaxşı tanıyırlar. Bu baxımdan məqalədəki materiallardan şəxsiyyətlərarası münasibətlərin və kollektivdə konfliktlərin tənzimlənməsində istifadə edilə bilər.

## Ədəbiyyat


1. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Psixologiya. Bakı, 2006.
2. Bayramov Ə.S., Əlizadə Ə.Ə. Sosial psixologiya. Bakı: Qapp-Poliqraf Korporasiyası, 2003.
3. Əhmədov A. 2009-2010-cu illərdə birinci siniflərdə dərs deyəcək müəllimlər üçün yeni fənn kurikulumlarının tətbiqi üzrə təlim kursunun materialları // Kurikulum, 2009, № 2, s. 35-70
4. Андреева Г.М. Социальная психология. М., Аспектопресс, 1999.
5. Вердербер Р., Вердербер К. Психология общения. СПб: Прайм-Еврознак, 2003.
6. Кричевский Р. Л., Дубовская Е.М. Социальная психология малой группы. М.: ПРИОР, 2001.
7. Лютова С.Н. Социальная психология личности М.: Просвещение, 2002.
8. Petrovski A.V. Ümumi psixologiya. Bakı: Maarif, 1982.
9. Майерс Д. Социальная психология СПб.: Речь, 2002.
10. Cassier E. Substance and funktion. Chicago, 1923.
11. Hayes N. Psychhology. London, 1999.


**Е.Б. Аскерова**

## Понятие «малая группа» и ее психологическая структура

## Резюме

Человек - самое ценное существо в мире. По этой причине изучение человека в различных науках всегда вызывало интерес и внимание. Объект исследования в психологии - человек как социальное существо. В частности, в социальной психологии, которая является важной областью общей психологии, человека изучают в группе, во взаи-

модействии с другими людьми. В последнее время все большее внимание уделяется изучению личности как члена небольшой группы. Можно с уверенностью сказать, что проблема малых групп - одна из наиболее широко изучаемых проблем социальной психологии. Роль небольшой группы в жизни человека растет день ото дня, потому что обществу всегда нужны решения, принимаемые группой, творческая работа, созданная группой. Небольшая группа - неотъемлемая часть нашей общественной жизни. Основа культуры активности в малых группах, нетворкинга и самореализации закладывается в семье и в школе.

**Y.B. Askarova**

## The concept of “small group” and its psychological structure

## Summary

Man is the most valuable being in the world. For this reason, the study of man in various sciences has always aroused interest and attention. Man, the object of research in psychology, is seen as a social being. In particular, in social psychology, which is an important area of general psychology, a person is studied within a group, in interaction with other people. Recently, there has been an increasing focus on the study of personality as a member of a small group. It is safe to say that the small group problem is one of the most widely studied issues in social psychology. The role of a small group in human life is growing day by day because society always needs decisions made as a group, creative work created by the group, a small group is an integral part of our social life. The foundation of a culture of activity in small groups, networking, and self-realization is laid in the family and at school.

**Redaksiyaya daxil olub:** 19.08.2021